# HÜQUQUN ƏXLAQİLİYİ PROBLEMİ VƏ AZADLIQ

**Q.V.ALLAHVERDİYEV**
*Naxçıvan Dövlət Universiteti*

Hüquq sisteminin artmaqda olan əxlaqiliyi ilə azadlığın qarşılıqlı əlaqələrinin araşdırılması, sosial fəlsəfənin ən aktual problemlərindəndir. Onun son dərəcə mühüm nəzəri və praktiki əhəmiyyət kəsb etməsinə baxmayaraq, yetərincə tədqiq olunmamışdır. Nəzərə alınmalıdır ki, liberal düşüncə tərzinə əsaslanan müasir sivil cəmiyyətlərdə insanın hüquq və azadlıqlarının müdafiə olunması və inkişaf etdirilməsi başlıca məqsəd rolunu oynayır. Bununla əlaqədar olaraq hüquqi normaların məzmununda əxlaqın yeri və rolunun aydınlaşdırılması, onun xüsusi çəkisinin çoxalmasının, azadlığın inkişafı baxımından mənalandırılmasının zəruriliyi daha aydın görünür.

Hüquqi normalar və münasibətlər yarandığı gündən əxlaq ilə ayrılmaz əlaqədə çıxış edir. Bunu ondan görmək olar ki, hüququn özü mənşə etibarilə mənəvi adətlərin yazılı formaya çevrilməsi kimi təşəkkül tapmışdır. O vaxtdan etibarən «əxlaqa qovuşmuş adət xarakterli hüquq, cəmiyyəti qeyri – sosial və anarxiya halına çevirə bilən özbaşınalığın və qanunsuzluğun qarşısını almağın sivil vasitəsi rolu oynayır» (5, 241).

Cəmiyyətin inkişafı gedişində dövlətin və siniflərin yaranması nəticəsində, hüquq əxlaqdan ayrılaraq müstəqil fəaliyyət göstərməyə başlamışdır. Sonrakı dövrlərdə onlar qarşılıqlı əlaqəli, lakin nisbi müstəqil və özünəməxsus normativ sistemlər kimi mövcuddur. Hüquqi normalar məcburi xarakter daşıyır, dövlətin gücü ilə qorunur. Onları pozanlar əməllərinə müvafiq surətdə hüquqi və inzibati cəza sanksiyasına məruz qalır. Onlardan fərqli olaraq, əxlaq normaları ictimai rəyə arxalanır. Bu normaların pozulmasında tətbiq olunan sanksiyalar özünəməxsus olur, yəni, insan etdiyi bu və ya digər hərəkətin cəmiyyət tərəfindən pisləndiyini başa düşərək, həya hissi keçirir və gələcəkdə ona yol verməməyə çalışır. Vaxtilə Ş.Monteskyo bu iki normativ sistemin yaxınlığını və fərqini göstərərək yazmışdır:

«Qanunlar ilə əxlaq arasındakı fərq bundadır ki, birinci daha çox vətəndaşın, ikinci isə insanın hərəkətlərini müəyyənləşdirir» (7, 417).

Əxlaq normaları və əxlaqi şüur xeyir, şər, ədalət borc, vicdan, şərəf, ləyaqət, xoşbəxtlik, həyatın mənası kimi kateqoriyalarda ifadə olunur. Onların tətbiq olunduğu sahələr çox geniş olub, özündə dostluq, yoldaşlıq, sevgi və sair intim münasibətləri əhatə edir. Ümumilikdə əxlaq normaları hüquq ilə müqayisədə insanın davranışları üçün daha böyük diapazon müəyyənləşdirir, yəni onun mümkün olan hədlərini geniş miqyasda götürür. Qeyd olunan səciyyəvi cəhətlərə malik olduğu üçün əxlaq, sosial normaların digər növləri (o cümlədən də, hüquqi) içərisində insanın daxili mənəviyyatına bilavasitə yaxın olması ilə seçilir. Sözügedən keyfiyyət ictimai şüurun normativ sistemi kimi çıxış

edən əxlaqa müəyyən universallıq verir. Belə ki, ictimai şüur formaları (xüsusilə də normativ xarakterli) öz funksiyalarını yerinə yetirərkən, həm də əxlaqi meyarlara arxalanmalı olurlar. Qeyd olunan məqam nə qədər çox olursa, həmin şüur formasının azadlıq ilə yaxınlığı da bir o qədər artır. Bu onunla şərtlənir ki, ictimai şüur formaları sırasında məhz əxlaq öz təbiəti və mahiyyətinə görə azadlığı daha çox ifadə edir. Sözügedən məqam əxlaqın hüquq normaları ilə münasibətlərində daha qabarıq özünü göstərir və ümumilikdə, hüququn əxlaqiliyi probleminin məzmununda ifadə olunur.

Hüquqi şüurun əxlaqliyi onun ilkin pilləsi olan sosial-psixoloji səviyyəsindən başlayaraq özünü göstərir. Onun əsas məzmununu təşkil edən hüquqi hisslərdə, vərdişlərdə və ənənələrdə həm şəxsiyyətlərarası münasibətlər, həm də sosial birliklər arasındakı münasibətlər ədalətlilik və ədalətsizlik mövqeyindən qiymətləndirilir, şəxsiyyətin bu baxımdan azad və ya qeyri-azad olduğu nəzərə çarpdırılır. Bu səviyyədə hüququn əxlaqilik keyfiyyətinin azadlıq ilə münasibətləri adi gündəlik həyat təcrübəsi hüquqları daxilində cərəyan edir. Bundan fərqli olaraq hüquqi şüurun yüksək pilləsində – hüquqi ideologiyada (nəzəri hüquqi şüurda) sözügedən münasibətlər daha aydın və sistemli formada baş verir. Bu pillədə hüququn requlyativ rolu güclənir, onun normativ və qiymətləndirici məzmununda əxlaqi tərəfin xüsusi çəkisi çoxalır. Bunu həmin şüur formalarının istifadə etdiyi anlayışların ümumiliyində (azadlıq, ədalət, məsuliyyət, borc) də yəqin etmək olar. Doğrudur, mənalarındakı incəliklər baxımından onlar hüquqi və əxlaqi şüurda biri-digərindən müəyyən qədər fərqlənir. Lakin bu fakt hüququn əxlaqiliyini nəinki azaltmır, əksinə daha da artırır. Nəticədə onun azadlığa müsbət təsiri də güclənir, çünki həmin tərəfin insan fəaliyyətinin daxili motivasiyasında, onun subyektiv aləmində çox mühüm yer tutması, onu azadlıqla daha da yaxınlaşdırır (8, 128 - 129).

Nəzəri, ideoloji səviyyədə hüquqi şüur rasional-əxlaqi tərəfə və qiymətverməyə daha çox meyl edir. Nəticədə hüquq ilə əxlaqın vəhdəti də möhkəmlənir. Bu proses onların hər ikisinin insanın vahid və bütöv mənəvi həyatının üzvi əlaqəli tərəfləri olduğunu sübut etməklə, azadlığa stimullaşdırıcı təsir göstərir. Məsələ burasındadır ki, sivil cəmiyyətlərdə hüquq normalarının özü də dərin əxlaqi məna daşıyır (Əlbəttə, bəzi təhlükəli cinayətləri ifadə edən normalar istisna olunmaqla). Deyilənlərdən aydın olur ki, hüquq ilə əxlaq faktiki olaraq sosial münasibətlərdə xeyirxahlığın, borcun və vicdanın əsas yer tutmasına çalışır. Yeganə fərq bundadır ki, hüquq həmin funksiyanı məcburi sanksiyalar vasitəsilə, əxlaq isə daxili tələbatın nəticəsi və mənəvi qınağın gücü ilə reallaşdırır. Onların hər ikisinin ümumi məqsədi insanları azad inkişaf və ümumi rifaha gətirib çatdırmaqdır. Burada azadlığın təzahürü, əxlaqi cəhətdən tərbiyəvi və yetkin fərd, seçim edərkən xarici mülahizələrdən (fayda, karyera, şöhrət və s.) deyil, öz daxili tələbatına çevrilmiş mənəvi borcdan çıxış etməsindədir.

Hüquqi şüurda həyata keçirilməsi vacib və ədalətli hesab olunan normalar dövlət qanunu səviyyəsində çıxış edir (yəni bu normalar pozulduqda məcburi sanksiya tətbiq edilir). Əxlaqi şüurda isə bu keyfiyyət və qiymətləndirmə insanın mənəviyyatına əsaslanır. Bununla belə, onların ümumi cəhətləri xeyli dərəcədə çoxdur. Buna görə də, hüququn əxlaqi arxaya malik olması müasir dövrdə ən vacib məsələlərdəndir. A.Spirkin haqlı olaraq yazır ki, «hüququn əxlaq tərəfindən dəstəklənməyə ehtiyacı vardır. Hüquqi şüur əxlaq ilə daimi

qarşılıqlı təsirdə olmazsa, onun əsası zəif olur» (10, 724).

Qeyd olunan məqam hüquq ilə azadlığın münasibətlərinə də aid edilməlidir. Doğrudur, sivil cəmiyyətdə hüquq normaları insanların azadlığının mühüm təminatçısı rolu oynayır. Bununla yanaşı, nəzərə alınmalıdır ki, hüquqi normaların verdiyi azadlıqlar daha çox zahiri xarakter daşıyır, bu mənada ki, o insandan kənarda olub, onun daxili aləmi ilə bilavasitə əlaqəli deyildir. Bundan fərqli olaraq, insanın əxlaq normaları ilə təmin olunan azadlığı onun daxili mənəvi kamilliyi ilə daha sıx bağlı olduğundan, xüsusi önəmə malikdir. Buradan bir daha aydın olur ki, hüququn əxlaqiliyi son dərəcə zəruridir. Elmi ədəbiyyatda haqlı olaraq göstərilir ki, «hüquq özünün bütün təzahürlərində – normativ sistem, ictimai münasibətlərin tənzimedici səpkisi və ədalət məhkəməsi kimi götürüldükdə, mənəviyyatdan keçməlidir. Hüququn daxili əxlaqiliyi onun effektivliyinin mühüm şərtidir» (11, 56-57).

Hüququn normaları güclü məcburetmə təsirinə malik olsalar da, bu təsirin imkanları sonsuz deyildir. Buna görə də əsas məsələ təkcə məcburiyyətə əsaslanmaqda deyildir. İnsanlarda, onların davranış və hərəkətlərini tənzim edən normalara dərin inam yaratmaq tələb olunur. Bu vəzifənin həlli isə hüququn əxlaqilik səviyyəsindən çox asılıdır.

Hüquq normalarının əxlaqiliyi, faktiki olaraq onları məcburi qaydada yerinə yetirilməli olan göstərişlər çərçivəsindən kənara çıxarır. Bu, ona görə böyük əhəmiyyətə malikdir ki, qeyd olunan prosesdə məcburi normalar insanın daxili mənəviyyatına hopur, fərdin subyektiv aləminin daxili yaşantıları kimi dərk olunur. Nəticədə onların yerinə yetirilməsi məcburiyyət kimi deyil, azadlıqla bağlı olan könüllülükdən irəli gələn mənəvi zərurət və borc kimi çıxış edir. Bu halda azadlıq kənar qüvvənin (dövlətin və onun hüquq mühafizə orqanlarının) məcburiyətə əsaslanan iradəsi ilə həyata keçirilmir. Fərdin öz maraqları və əqidəsinin, daxili subyektiv göstəricilərinin təhriki ilə reallaşdırılır. Buna görə də o, insanın əsl seçim imkanlarını və onları həyata keçirməyə nə dərəcə qadir olduğunun göstəricisi rolunu oynayır (2, 81).

Bu məqam, yəni normanın kənar qüvvə tərəfindən təlqin edilməyərək, öz daxili düşüncə səviyyəsindən keçərək hasil olması, fərdin konkret situasiyada, sözün əsl mənasında, azad davranışına çox güclü və müsbət təsir göstərir. Yeri gəlmişkən, qeyd edək ki, deyilənlər təkcə hüquqi normalara deyil, həm də insanın həyat tərzində mühüm yer tutan yüksək dəyərlərə və birgəyaşayış qaydalarına da aiddir. Yəni onların da adekvat reallaşması insanın mənəviyyatına dərindən nüfuz etməsi və məninə hopması yolu ilə baş verir. Bu mənada S.Xəlilovun aşağıdakı fikri ilə razılaşmaq olar: «Hər hansı bir həyat tərzi, hər hansı bir əqidə, hər hansı bir geyim insana kənardan, icbari yolla qəbul etdirilməməlidir. Namus, ismət də kişi diktatının və ya çadranın sayəsində deyil, mənəvi bütövlüyün ayrılmaz tərkib hissəsi kimi, daxildən gələn bir tələbat kimi mövcud olmalıdır» (1, 464).

Əxlaq hüquq ilə müqayisədə insanın daxili mənəvi həyatına yaxın olduğundan, hüquqda əxlaqi tərəfin çoxalması insanların sosial tənzimetmə mexanizmində mühüm yenilik yaradır. Həmin yeniliyin mahiyyəti bunda təzahür edir ki, davranış və hərəkətin xarici amilləri (hüquq başlıca olaraq bu mövqedən çıxış edir) ilə daxili mənəvi keyfiyyətlərinin (bu əxlaqda daha geniş tutur) bir növ inteqrasiyası baş verir. Qeyd olunan cəhət mühüm əhəmiyyət kəsb edir. Belə ki, insanın azadlığının təmin olunması, yəni azad seçim və qərar qəbul etməsi üçün təkcə kənar (xarici) tənzimləmə kifayət deyildir. Əsl azadlıq subyektin

özünün daxili mənəvi tənzimləməsini tələb edir. Yalnız belə olduqda, insanın davranış və hərəkətlərinin tənzim olunması ilə öz-özünü tənzimləməsi üzvü surətdə qovuşur. Bunun nəticəsində, insan fəaliyyətinin hüdudları, ona qoyulan qadağalar ciddi surətdə yeniləşir. Burada fərdi aktivliyin və azadlığın təsir dairəsi çoxalır, hüquqi məcburiyyətin xüsusi çəkisi azalır. Qeyd olunan məqam hüquqda və əxlaqda, xüsusilə də, onların qovuşuq halı olan yeni keyfiyyətində azadlığın çoxalmasını şərtləndirir.

Hüququn əxlaqiliyinin azadlığa təsiri mexanizmini təhlil edərkən, onun yalnız bir istiqamətdə baş verdiyini iddia etmək doğru olmazdı. Başqa sözlə deyilsə, məsələni təkcə hüquq normalarının əxlaqi məzmun kəsb etdiyi kimi təsəvvür etmək birtərəfli olardı. Əslində bu prosesin əks istiqaməti də özünü göstərir: sivil cəmiyyətlərdə həm də əxlaq normaları, sözün müəyyən mənasında, hüquq normaları standartları ilə ölçülür. Bu o deməkdir ki, bəzən əxlaqi cəhətdən bəraət qazandırılan və ya qınaq obyektinə çevrilən məsələnin həllində hüquqi şüurun və hüquqi düşüncənin «müdaxiləsinə» ehtiyac yaranır. Belə olduqda, problem həm də hüquq müstəvisində dəyərləndirilir. Lakin bu məqamda da fərdin hüquq və azadlıqlarının vəhdəti əsas meyar rolunu oynayır.

Buradan bir daha aydın olur ki, hüququn əxlaqiliyi konkret hansı yolla getməsindən asılı olmayaraq, öz mahiyyətinə görə azadlığın inkişafına müsbət təsir göstərir. Deməli, əxlaq və onun şəxsiyyətin davranışına tənzimedici təsiri müxtəlif istiqamətlərdə özünü göstərən mürəkkəb prosesdir. Sözügedən təsirin məğzini fərdin konkret situasiyada azad seçimə açdığı imkanların genişlik səviyyəsi təşkil edir. Başqa sözlə deyilsə, fərdin fəaliyyət və davranışında hüququn əxlaqiliyi nə qədər çoxdursa, onun azad seçim imkanları və ümumilikdə azadlığı da bir o qədər artıq olur. Qeyd olunan istiqamətin reallaşmasında həm də aşağıdakı qeyd olunan məqamda mühüm yer tutur. Söhbət ondan gedir ki, bu və ya digər konkret şəraitdə insanın davranış və hərəkətləri öz mənəvi göstəricilərinə nə qədər çox arxalanırsa, onun hərəkətləri üçün məsuliyyəti də bir o qədər artıq olur (8, 36). Məsuliyyət artdıqca onun azadlığa tənzimləyici təsiri də güclənir. Bəzən belə yanlış təsəvvürlərə rast gəlinir ki, hüquqda əxlaqiliyin cüzi, minimum səviyyədə olması və yaxud konkret bir məsələyə münasibətdə özünü göstərməsi kifayətdir. Fikrimizcə, bu qəbildən olan iddialara haqq qazandırmaq olmaz. Əxlaq ayrılıqda və bütövlükdə, cəmiyyətinin sosial mahiyyətinin başlıca tənzimedici və ifadəsi olduğundan, digər sosial normaların, o cümlədən də, hüququn ictimai həyatda öz funksiyasını yerinə yetirməsi, onlarda əxlaqi məzmunun səviyyəsindən xeyli dərəcədə asılıdır. Bununla əlaqədar qeyd edək ki, müasir Qərb dünyasında rasionalist düşüncəyə və maddi dəyərlərə üstünlük verilməsi və mənəvi-əxlaqi göstəricilərinin lazımi dərəcədə qiymətləndirilməməsi, onun mənəvi böhranının başlıca səbəblərindəndir.

Hüquq ilə müqayisədə əxlaqda fərdi mənəvi tərəf daha üstün olduğundan, onun qaydaları və normaları yüksək mənəvi dəyərləri ifadə edir. Bu cəhət müasir dövrdə yaranan əxlaq nəzəriyyələrində əhəmiyyətli yer tutmaqdadır. Bununla yanaşı, yeni baxışlar xüsusi zərurət olmadığı hallarda, insan azadlıqlarının məhdudlaşdırılmasını məqbul hesab etmir, əksinə əxlaqi azadlığın hüdudlarının dəqiqləşdirilməsini və məzlum vəziyyətində olan azlıqların hüquqlarının müdafiə olunmasını irəli sürür (4, 80).

Hüququn əxlaqiliyi insanın digər insanlara, vətəninə və xalqına

münasibəti ilə bağlı fəaliyyətində seçim və qərar qəbul etməsində daha aydın görünür. Lakin o, bununla məhdudlaşmır, həm də şəxsiyyətin öz-özünə olan münasibətlərində təzahür edir. Bu, onunla izah edilir ki, normal cəmiyyət öz üzvlərinin taleyinə biganə qala bilməz. Hətta bu və ya digər fərd müəyyən səbəblər üzündən öz azadlığına və həyatına qəsd etmək qərarına gələrək, intihar etdikdə də cəmiyyət (din də) bu hərəkəti pisləyir, onu törədən şəxs mənəvi qınaq obyektinə çevrilir.

Hüququn əxlaqiliyi artdıqca fərdin fəzilətə, (xeyirxahlıq) və qəbahətə (şərə) etinasız münasibətinin qeyri-mümkünlüyü daha aydın üzə çıxır. Belə ki, o, tədricən anlayır ki, analoji hərəkət etməyə onun mənəvi cəhətdən hüququ yoxdur. Nəticədə onun öz davranış və hərəkətlərinə görə vicdanı və bütövlükdə, cəmiyyət qarşısında mənəvi məsuliyyəti çoxalır. Sonuncu anlayış isə insanın azadlığından ayrılmazdır. Hüquqda əxlaqilik və mənəvilik nə qədər geniş yer tutarsa, insanın cəmiyyətdəki mövqeyində, yerinə yetirdiyi rolda və ümumi fəaliyyətində iradə azadlığı və azad seçim imkanları daha da artır.

Hər bir fərd cəmiyyətdə təkbaşına yaşamır, digər insanlarla ünsiyyətdə və qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Bu məqam ondan öz maraqlarını ümumi maraqlarla uzlaşdırmasını, insanlarla münasibətlərdə müəyyən öhdəliklər yerinə yetirməsini tələb edir. Hüquq və əxlaq bu qəbildən olan borcluluq münasibətlərinin reallaşdırmasını tənzim edən iki sıx əlaqəli formadır. Qeyd etmək lazımdır ki, hüququn əxlaqi xarakterinin azadlığa real təsiri prosesi əlahiddə baş vermir, mövcud cəmiyyətin sosial-mədəni amilləri ilə birlikdə çıxış edir. Bu münasibətdə əhalinin mədəni səviyyəsinin göstəriciləri çox mühüm rol oynayır. Belə ki, hüquq normalarının məzmununda mənəvi və əxlaqi məqamlar nə qədər çox olursa-olsun, əgər cəmiyyət üzvlərinin mədəniyyəti lazımi səviyyədə inkişaf etməmişdirsə, o azadlığın reallaşmasına elə bir güclü təsir göstərə bilmir. Hüquq ilə əxlaqın vəhdəti, onların qarşılıqlı surətdə birinin digərini tamamladığı haqqında fikirlər İ.Kantın yaradıcılığında geniş yer tutur. Bu problemi araşdıran A.Alekseyev Kantın sözügedən mövqedən olan baxışlarını təhlil edərək belə bir nəticəyə gəlir ki, əslində əxlaq hüquqa «müqəddəslik» keyfiyyəti verir. Əxlaqi meyarlar, hüququn təkcə tənzimləyici deyil, həmçinin yüksək mənəvi keyfiyyət olduğunu nəzərə çarpdırır (3, 287).

Hər bir sivil cəmiyyətdə ictimai münasibətlərin müxtəlif tərəfləri hüquq normaları vasitəsilə tənzim olunur. Bununla yanaşı göstərilməlidir ki, həmin normalar təkbaşına deyil, əxlaqi məzmunla zənginləşdikdə, daha yüksək səmərə verir. Bu halda insanın onlara əməl etməsi kənar məcburi qüvvənin təsiri ilə deyil, öz daxili tələbatının nəticəsi kimi çıxış edir. Beləliklə də, onun azadlığına geniş imkanlar açılır. Cəmiyyətimizin yaşadığı açıq ictimai münasibətlər sisteminə keçid dövründə, hüquqi dövlət quruculuğunun tələblərinə uyğun olaraq məcburi normaların əxlaqiliyi daha geniş məzmun alır. Bu baxımdan ölkəmizdə aparılan hüquqi islahatlar, bütövlükdə hüquq sisteminin təkmilləşdirilməsi müstəsna əhəmiyyətə malikdir. Həmin proses intensivləşdikcə, hüquq normalarının əxlaqi və ümummənəvi mahiyyəti, tərbiyəvi təsiri də çoxalır. Bu isə, öz növbəsində, fərdin azadlıqlarının inkişafına stimullaşdırıcı təsir göstərir. Qeyd olunan məqam onunla şərtlənir ki, milli dövlətçilik şəraitində həm hüquq, həm də əxlaq azadlıq ilə sıx qarşılıqlı əlaqədədir. Onların qovuşmasını ifadə edən hüququn əxlaqiliyi isə bu şüur formalarının azadlıq ilə ayrılmaz vəhdətini təmin edir. Bununla yanaşı göstərilməlidir ki, bir çox digər

məsələlərdə olduğu кimi, hüququn əxlaqiliyinin çoxalması və onun azadlığa təsiri də, postsovet məкanında yaranan ölкələrin yaşadığı tarnsformasiya prosesləri şəraitində xeyli çətinliкlərlə üzləşməli olur. Bu onunla şərtlənir кi, totalitar rejimdən açıq cəmiyyətə кeçid dövründə meydana çıxan neqativ hallar bəzən azadlığın humanist ideyasını, yüкsəк mənəviyyatı, vicdanlılığı və ədaləti zərbə altına qoyur. Azad bazar münasibətləri şəraitində bəzən insanların seçim azadlığı, aldatma və yalan yolla varlanmaq azadlığı кimi özünü göstərir (6, 114).

Təbiidir кi, qeyd olunan vəziyyət hüquq sisteminin sözün əsl mənasında mənəviyyata və əxlaqa əsaslanmasına, sonuncu ilə birləşərəк azadlığı inкişaf etdirməsinə müəyyən qədər ləngidici təsir edir. Bu vəziyyət кeçmiş müttəfiq respubliкaların hamısında bu və ya digər dərəcədə özünü göstərir. Azərbaycanda onun səciyyəvi xaraкter daşıdığını və geniş yayıldığını iddia etməк doğru olmazdı. Belə кi, burada xalqımızın şərq ənənələri ilə sıx bağlı olması üzündən, insanların fəaliyyət və davranışlarında mənəvi-əxlaqi dəyərlər öz müsbət təsirini və rolunu oynamaqda davam edir. Bununla birliкdə, qapalı cəmiyyətdən açıq ictimai münasibətlər sisteminə кeçidin çətinliкləri, insanların azadlıq mühitinə ləng alışması, azadlığın ictimai şüurda tam dolğunluğu ilə qərarlaşmamasının törətdiyi mənfi nəticələr ölкəmizdən də yan кeçmir. Bütövlüкdə götürdüкdə ölкəmizdə dərin humanist məna daşıyan hüquq sistemində, o cümlədən də, hüquqi normalarda əxlaqiliк durmadan artır. Həm də qeyd olunmalıdır кi, o, sadəcə bir məqam və cəhət кimi özünü göstərmir. O, getdiкcə daha artıq dərəcədə hüququn daxili məzmununa nüfuz edir, onun standartlarında və normativ hüquqi aкtlarda geniş əкs olunur. Ölкəmizdə həyata кeçirilən hüquqi islahatlar bu prosesin intensiv getməsi üçün lazım olan şəraiti təmin edir. Hüququn əxlaqi məzmunla tamamlanması insan azadlığının sabitliyinə və inкişafına etibarlı təminat yaradır. Nəzərdə tutmaq lazımdır кi, müasir dövrdə hərtərəfli qloballaşma prosesləri, ölкələrin və xalqların ictimai həyatının bütün əsas göstəriciləri üzrə inteqrasiyasını şərtləndirir. Bu yaxınlaşma, həm də hüquq və azadlıqların mənalandırılmasında ümumi cəhətlərin artması ilə müşahidə olunur. Bununla əlaqədar olaraq hüququn əxlaqiliyi, onun məzmununa əxlaqın dərindən nüfuz etməsi meyli, milli və regional həddlər ilə məhdudlaşmır, beynəlxalq miqyas alır. Bu, insan hüquqları azadlıqlarını tənzim edən beynəlxalq sənədlərdə geniş yer aldıqca, bəşəriyyəti həqiqi azadlıq idealına getdiкcə daha çox yaxınlaşdırır.

## ƏDƏBİYYAT


1. Xəlilov S. Şərq və Qərb: ümumbəşəri ideala doğru. Baкı: Azərbaycan Untversiteti, 2004, 624 s.
2. Алексеев С.С. Философия права. М.: Норма, 1999, 336 с.
3. Алексеев С.С. Иммануель Кант и проблемы права в современную эпоху. М.: Норма, 1998, 416 с.
4. Бьюкенен П. Дт. Смерть Запада. М.: АСТ, 2003, 444 с.
5. Крапивенский С.Э. Социальная философия. М.: Владос, 1998, 411 с.
6. Лейбин В.М. Открытый мир: рационализация самообмана // На пути к открытому обществу. М.: Весь мир, 1998. с. 113-125
7. Монтескье Ш. Избранные произведения. М.: Мысль, 1965, 497 с.
8. Общественное сознание и его формы. М.: Политиздат, 1986, 367 с.
9. Пеньков Е.М. Социальные нормы: управление, воспитание, поведение. М.: Высшая школа, 1990, 175 с.

10. Спиркин А.Г. Философия. М.: Гардарики, 2000, 810 с.
11. Туманов В.А. Правовой нигилизм в историко–идеологическом ракурсе // Государство и право. 1993. № 8, с. 52–64.

## ПРОБЛЕМА НРАВСТВЕННОСТИ ПРАВА И СВОБОДА

**Г.В.АЛЛАХВЕРДИЕВ**

### РЕЗЮМЕ

В статье исследуются взаимосвязи и взаимодействия нравственности права и свободы как одна из самых актуальных проблем социальной философии. В ней рассматриваются такие вопросы: как вступление в неразрывную связь правовых норм и отношений с моралью с момента их возникновения, усиление благотворного воздействия нравственности права на свободу по мере их развития, преобладание нравственного в праве, существование человечности в механизме социального регулирования.

В статье анализируется механизм воздействия нравственности права на свободу. Констатируется то, что независимо от того, по какому пути идет нравственность права, последняя по сути своей всегда оказывает на развитие свободы благотворное воздействие. Делается вывод о том, что наполнение права нравственным содержанием создает прочную гарантию для стабильности и развития свободы человека, а тенденция глубокого проникновения морали в сущность права не только ни ограничивается национальными и региональными чертами, еще приобретает и международный масштаб.

## THE PROBLEM OF MORALITY OF RIGHT AND FREEDOM

**G.V.ALLAHVERDIYEV**

### SUMMARY

The article investigates the inter relation and interaction between the morality of right and freedom as one of the most actual problems of social philosophy. The article studies the inseparable connection of legal norms and relations with morals since the day they appeared, the intense interaction between the morality of right with freedom in the basis of their development and the humanism factor in the social regulation mechanism.

The article deals with the mechanism of interaction of morality of right with freedom. It is stated that regardless the way the morality of right goes through, it always has a positive effect on the development of freedom. The author concludes that the completion of right with moral content is a quarantee for the stability and development of human freedom, and the trend of deep influence of moral of right is not limited within national and regional bounds, but takes international scale.